# SƏRVƏR BƏY ATABƏYOV-KOBLİANLI (OSMAN SƏRVƏR BƏY ATABƏY) (1886-1962) YENİ ARAŞDIRMALAR İŞIĞINDA

Ədalət TAHİRZADƏ*

**Özet:** Sərvər bəy Atabəyov-Koblianlı (Türkiyədə: Osman Sərvər bəy Atabəy) (1886-1962) XX yüzilin ilk yarısında Güney Qafqazın ictimai-siyasi tarixində önəmli rol oynayıb. Bu məruzə Azərbaycan tarixşünaslığında onun həyat və fəaliyyəti haqqında ilk elmi araşdırmadır.

Axıskada 25 iyul (6 avqust) 1886-cı ildə doğulmuş və İzmirdə 13 dekabr 1962-ci ildə dünyasını dəyişmi Sərvər bəy 1267-ci ildən bəri Axıskada elbəyilik edən Atabəylərin Altunqala / Koblian qolundan Süleyman bəy oğlu Rağıb bəy oğlu Əli bəy oğlu Feyzullah bəyin oğludur. Anası isə Sankt-Peterburq Universiteti Şərq dilləri uzmanı Ufalı professor Hüseyn əfəndi Feyzxanovun qızı Zeynəb xanımdır. İlk təhsilini Azərbaycanın görkəmli maarif xadimi Axıskalı Ömər Faiq Nemanzadədən alıb, sonra Rusiya, Almaniya və Polşada ali təhsil alaraq 1916-cı ildə vətənə dönüb. Rusiyada 1917-ci il Fevral inqilabından sonra erməni və gürcülərin hücumlarından qorunmaq üçün Azqur, Axalkələk, Axıska, Hırtız və Koblıyan ilçələrində milli təşkilat quraraq yerli türklərə başçılıq edib. 1918-də Ərdahan sancağından Güney Qafqaz Seyminə deputat seçilib. 1919-un martının başlarında Axıskanı işğal edən gürcülərə qarşı bölgə əhalisini təşkilatlandıraraq və Xalid paşadan da dəstək alaraq silahlı mücadiləyə girişib, gürcü qüvvələrini Axıska və Azqurdan çıxararaq Borjoma çəkilməyə məcbur edib. I dönəm Türkiyə Böyük Millət Məclisinə Ərdahan millət vəkili olaraq qatılıb. Kazım Qarabəkir paşanın çox yaxın dostu olub.

Sərvər bəyin haqqında Türkiyədə ən geniş və dəyərli yazını Prof. Dr. Fəxrəddin Kırzıoğlu yazıb. Onun məqaləsi, demək olar ki, bütün sonrakı yazılara qaynaq olub.

Biz bu məruzədə Sankt-Peterburq arxivində üzə çıxardığımız bəlgələrdən, Azərbaycan və Türkiyə tarixçilərinin diqqətdən kənarda qalmış əsərlərindən və bir sıra başqa qaynaqlardan yararlanmış, mövcud araşdırmalardakı bir sıra yanlışları düzəltmişik.

***Açar sözlər***: *Sərvər bəy Atabəyov-Koblianlı (Osman Sərvər bəy Atabəy), Güney Qafqaz, Azərbaycan, Axıska, Türkiyə.*

**Server Bek Atabekov-Koblianly (Osman Server Bey Atabek) (1886-1962) in the Lıght of New Research**

**Abstract:** Server-bek Atabekov-Koblianly (in Türkiye: Osman Server Bey Atabek) (1886-1962) played an important role in the socio-political history of the South Caucasus in the first half of the 20th century. This report is the first scientific study of his life and work in Azerbaijani historiography.

Server-bek was born in Ahiska on July 25 (August 6), 1886 and died in Izmir on December 13, 1962. He is the son of Feyzullah-bek son of Ali-bek son of Ragib-bek son of Suleyman-bek from the Altunkala / Koblian branch of the Atabeys, who were Elbeys in Ahiska since 1267. His mother, Zeynab-khanum, is Professor Hussein-effendi Feyzkhanov from Ufa, a specialist in oriental languages at St. Petersburg University. Server-bek received his first education from Omer Faik Nemanzade, a prominent figure in the education of Azerbaijan. Then, having received higher education in Russia, Germany and Poland, he returned to his homeland in 1916. After the February Revolution of 1917 in Russia, he organized national self-defense forces in the Azgur, Akhal-Kelek, Ahiska, Khyrtyz and Koblian regions to protect against attacks by Armenians and Georgians and, becoming the leader of the local Turks, headed these forces. In 1918, he was elected as a deputy of the Transcaucasian Sejm from the Ardahan Sanjak. In early March 1919, having organized the population of the region and received the support of Khalid Pasha, he began an armed struggle against the Georgians who occupied Ahiska and forced the Georgian troops to retreat from Ahiska and Azgur to Borjom. He was a member of the first convocation of the Grand National Assembly of Turkiye from Ardahan. Server-bek was a very close friend of Kazim Karabekir Pasha.

In Türkiye, the most extensive and valuable article on Server-bek was written by Professor Fakhreddin Kırzıoğlu. His article served as the source for almost all subsequent works.

In this report, we used documents we discovered in the St. Petersburg archives, which were not studied by the works of Azerbaijani and Turkish historians, a number of other sources, and corrected a number of errors in existing studies.

***Key Words***: *Server-bek Atabekov-Koblianly (Osman Server Bey Atabek), Transcaucasia, Azerbaijan, Ahiska, Türkiye.*

## Giriş

Azərbaycanla Axıska bölgəsi arasında həmişə sıx ünsiyyət olub. Təsadüfi deyil ki, Axıska türklərindən *Hafiz Məhəmmədəmin Şeyxzadə* (XIX ə. sonu-XX ə. baş.), onun qızları:

* Prof. Dr., Bakı Avrasiya Universiteti, professor; adalet.tahirzade@yahoo.com; https://orcid.org/0000-0002-8207-3312

*Şəfiqə Əfəndizadə* (1883-1959) və *Səidə Şeyxzadə* (?-?), *Ömər Faiq Nemanzadə* (1872-1937), *Əhmədcövdət bəy Pepinov-Ömərbəyov* (1893-1938), *Məhəmməd bəy Pepinov-Ömərbəyov* (1894-1953), *Məhəmmədzəki Dursunzadə* (1890-1937) və bir çox başqalarının adları Azərbaycanın maarif və mədəniyyəti tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycan qayğıkeş bir ana kimi onlara böyük sevgi ilə öz isti qucağını açıb və onlar da sədaqətli övlad kimi Azərbaycan xalqına sonadək şərəflə xidmət edib. Taleyi Azərbaycanla kəsişmiş aydınlardan biri də *Sərvər bəy Feyzulla bəy oğlu Atabəyov-Koblianlı*'dır (Türkiyədə: *Osman Sərvər bəy Atabəy*) (1886-1962).

Sərvər bəyin şəxsiyyəti istər Azərbaycanda, istərsə Rusiyada az tanınır. Bu ölkələrdə onun haqqında çox ötəri bilgilər var. Məsələn, Azərbaycandan bircə örnək. Qars və Araz-Türk Cümhuriyyətləri haqqında gerçəkdən dəyərli bir əsər (***6***) yazmış *Aydın Hacıyev* kimi təcrübəli və məlumatlı bir tarixçi belə *Sərvər bəy Atabəyov-Koblianlı*'nı tanımır və aşağıda görəcəyimiz kimi, ciddi yanlışlığa yol verir:

*"Yanvarda[1] Cənub-Qərbi Qafqaz Respublikası öz ərazilərini və birincilər sırasında Batum vilayətini itirməyə başladı. Yanvarın 20-də Batum Şəhər İdarəsində Batum vilayətinin bütün məntəqə nümayəndələrinin və Qars vilayətindən iki nümayəndənin* ***(Atabəyov** və* ***Kəblinskinin)*** *iştirakı ilə iclas keçirildi".*

*"**Atabəyov** və **Kəblinski** ADR[2] hökumətinin Batumdakı nümayəndəsinə bildirirdilər..."* [***6***, 21, 23].

Göründüyü kimi, A.Hacıyev Atabəyov-Koblianlının iki ayrı şəxs olduğunu düşünür.

Sankt-Peterburqlu tarixçi *Almira Tahircanova* "Mirzə Aleksandr Kazım bəy və Hüseyn Faizxanov" adlı məqaləsində yazır ki, Sərvər bəy professor *Hüseyn əfəndi Faizxanov'*un qızı *Zeynəb xanım*'ın oğludur. Sərvər bəyin soyundan da söz açan Almira xanım qeyd edir:

*"Gənc oğlan qədim və ad-sanlı* ***Azərbaycan soyundandır****. Təəssüf ki, onun hansı siyasi görüşləri daşıdığı və taleyinin necə olduğu bilinmir.* ***Bakı tarixçilərinin S.Atabəyov-Koblianskinin fəaliyyəti haqqında bilgisi yoxdur****"* [***17***, 68-69].

Moskvada 2018-ci ildə çıxmış rusca "Çar Rusiyasının 3000 erməni zabiti" kitabının erməni müəllifi *Yuri Asadov* Sərvər bəyin babası *Əli bəy Atabəyov*'un "qədim erməni zadəgan-bəy soyundan" çıxdığını və erməni-qriqorian məzhəbindən olduğunu (?!) yazıb (***10,*** I, 535). Bu "tarixçi" *Əbdürrəhim bəy Haqverdiyev* (1870-1933) kimi görkəmli Azərbaycan yazıçısını belə erməni sayırsa Sərvər bəyin nəslini erməni adlandırmasında təəccüblü bir şey yoxdur. Asadovun "cürəti" ondan qaynaqlanır ki, tarixçilərin Koblianlıların soyu haqqında bilgisi qıtdır.

Qardaş Türkiyədə isə "Osman Sərvər Atabəy" haqqında bilgilər elə də yaygın deyil. Bizim Sankt-Peterburq arxivinin materiallarına, eləcə də Türkiyədə nəşr olunmuş bir sıra qaynaqlara söykənən bu məruzəmiz S.F.Atabəyov-Koblianlının (Osman Sərvər Atabəyin) ömür yolunu bütün dönəmlərini əhatə edən ilk elmi araşdırmalardandır.

**1. Feyzulla bəy Əli bəy oğlu Atabəyov-Koblianlı bəlgələrdə.**

Zaqafqaziya müftisi *Hüseyn əfəndi Qayıbzadə* (1830-1917) böyük knyaz *Nikolay Mixayloviç*'in (1859-1919) göstərişinə uyğun olaraq tabeliyindəki idarələr vasitəsilə 13 aprel 1910-cu ildə Güney Qafqazın bütün qazilərinə və bəzi nüfuzlu dünyəvi şəxslərinə sərəncam verib ki, yaşadığı dönəmdə şöhrət qazanmış mərhum sünni müsəlmanlar haqqında məzarlıqlardan və məscidlərdən bilgilər toplayaraq ona göndərsinlər. (Oxşar sərəncamı şeyxülislam da şiə müsəlmanlarla bağlı göndərib).

Bu sərəncama əsasən iki ay müddətində məzar daşlarında, məscidlərin divarlarında və içərisində olan uyğun yazıların surəti çıxarılıb, H.ə.Qayıbzadə onların mətnini ruscaya çevirdərək orijinal mətnlə birlikdə iki nüsxədə 1910-cu ilin iyun-iyul aylarında Rusiya DİN Xarici Məzhəblər Ruhani İşləri İdarəsinə sola salıb. İndi Azərbaycan Respublikası Tarix

[1] 1919-cu il nəzərdə tutulur.

[2] Azərbaycan Cümhuriyyəti (1918-1920) nəzərdə tutulur.

Arxivindəki Zaqafqaziya Sünniməzhəb Müsəlmanların Ruhani İdarəsi fondunda saxlanılan "Həyatda ikən şöhrət qazanmış mərhum sünni müsəlmanlar haqqında məlumatların toplanması haqqında iş" qovluğunda həmin bəlgələrin yalnız qaralamaları qalmaqdadır.

Hüseyn əfəndinin toplatdığı bəlgələrdən biri məşhur bəy ailəsindən çıxmış, çarın vəliəhd oğlu, böyük knyaz *Georgi Aleksandroviç'*in (1871-1899) cənazəsini müşayiət edərkən anidən 1899-cu ildə vəfat etmiş Axalkələk mülkədarı *Feyzulla bəy Əli bəy oğlu Atabəyov-Koblianlı'*nın məzarüstü yazısına addir. Orada qeyd edilib ki, Feyzulla bəy 25 rəbiül-əvvəl 1241-ci / 21 aprel 1845-ci ildə[3] doğulub, 1 rəbiüs-sani 1317-ci / 9 iyul 1899-cu ildə[4] dünyasını dəyişib.

Məzar daşının üzərində ərəbcə bunlar da yazılıb:

*"Sən, qara torpaq, sevgilimizi məhəbbətlə qoru.*

*Bu qucağında saxladığın gözümüzün işığıdır.*

*Allahın rəhməti ona "Fatihə" oxuyanın üzərinə olsun".*

Daha sonra daş üzərində farsca bir beyt də var [***1***, 113; ***16***, 122].

Pprofessor Asif Hacılının "Axıska türkləri: Vətən bilgisi" kitabındakı bir qeyd Feyzulla bəyin ölümünün gerçək səbəbinə işıq salır. Əsərdə oxyuyuruq ki, çar vərəmli oğlunu Axıskadaya, Feyzulla bəyin yanına göndərərək Abastumanda onun müalicəsinə yardım göstərməsini xahiş edib. Abastumanda çarın oğlu atasının hədiyyə göndərdiyi velosipedi sürərkən uçuruma yuvarlanaraq həlak olub. "Feyzulla bəy cənazəni Peterburqa aparmaq üçün xüsusi heyət hazırladı və özü bu heyətə başçılıq edirdi. Heyət yola düşən anda erməni dığaları Feyzulla bəyin təvazökarlığından istifadə edərək qəddarcasına onu zəhərləyib öldürürlər" [*7*, 569].

Yeri gəlmişkən, biz Sərvər bəyin Sankt-Peterburq arxivindəki tələbə şəxsi işini araşdırarkən onun atası – Axaltsıx qəzası hərbi "zemski" mühafizəsinin distansiya rəisi, milis podporuçiki *Feyzulla bəy Atabəyov-Koblianlı'*nın 20 iyun 1877-ci ildə tərtib edilmiş əmək dəftəri ilə tanış olduq. Burada onun 34 yaşı olduğu və bütün qulluq fəaliyyəti dəqiqliklə qeyd edilib [***4***, 10].

**2. Professor Fəxrəddin Kırzıoğlu nə yazır?**

Fikrimizcə, Sərvər bəyin həyat və fəaliyyəti haqqında indiyədək yazılmış ən qapsamlı məqalənin müəllifi professor *Fəxrəddin Kırzıoğlu'*dur. Onun "Türk-gürcü savaşında ən böyül milli qəhrəmanımız – yüksək mühəndis Osman Sərvər Atabəy (1886-1962)" adlı məqaləsi [***15***] olduqca dəyərli bir araşdırma məhsuludur. Onun bilgilərlə dolu yazısı belə başlayır ki, Posofdakı əski qala *Caksu'*dan 1267-də Elxanlılar çağında ATABƏY olaraq Elbəyləri sayılan Qıpçaq (Kuman)lı Atabəylərin *Altunqala/Koblıyan* qolundan *Süleyman bəy oğlu Rağıb oğlu Əli bəy'*in qazax-xassə alayında süvari önyüzbaşısı olan oğlu *Feyzullah bəy'in oğlu* ***Osman Sərvər bəy*** 20 avqust 1886-da Axıskanın Türk məhəlləsi Yeni Axıska kəsimində öz malikanələrində doğulub. Anası Peterburq Universiteti Şərq dilləri uzmanı olan Ufalı professor *Feyizxanoğlu Hüseyn əfəndi'*nin (1823-1866) qızı, lisə məzunu *Zeynəb xanım'*dır. Axıskalı *Ömər Faiq əfəndi'*dən[5] evində oxumağa başlayıb, türkcə və din bilgilərini öyrəndi. 1895-də Tiflisdə hazırlıq sinfi ilə doqquz illik olan rus real gimnaziyası adlı lisədə oxuyaraq 1904-də məzun oldu. Gənc yaşında atasını itirincə dayıları himayə etdi. 1904-ün payızında Peterburq Politexnik Məktəbində 2 il yüksək kimya mühəndisliyi fakültəsində oxudu. 1906-da Almaniyanın Saksoniya kəsimində Freiburg şəhərində mühəndislik təhsilinə davam etməklə 1908-də həm mədən mühəndisi, həm də məsahə[6] mühəndisi diplomlarını aldı. [Polşanın] Breslaw Yüksək Ziraət İnstitutuna da iki il yarım davam edərək 1911-də ziraət mühəndisi oldu.

---

[3] Doğrusu: 7 noyabr 1825-ci ildə.

[4] Doğrusu: 9 avqust 1899-cu ildə.

[5] Ömər Faiq Nemanzadə (1872-1937) nəzərdə tutulur.

[6] Sahə, ərazi.

Sonra Peterburq [Universiteti] hüquq fakültəsinə iki il davam edib başarmışkən, 1914 savaşının başlaması ilə Axıskada evinin və geniş əmlakının başına keçdi. Ertəsi il yenə Peterburqa gedərək hüquqdan məzun oldu, Axıskaya döndü [***15***, 54].

F.Kırzıoğlu Rusiyada 1917-ci il Fevral inqilabından bir ay keçmədən Sərvər bəyin "Bakı İslam Cəmiyyəti-Xeyriyyəsi başqanı Qarabağlı (Zəngəzurlu) Dr. *Sultanzadə Xosrov*"[7] və "müəllim *Qaraşarlı Nəzərəli oğlu İsmayıl Rza bəylər*"in "fikir yardımı ilə" Azqur, Axılkələk, Axıska, Hırtız və Koblıyan ilçələrində Milli Təşkilat qurmasından və yerli türklərin öncüsü, lideri olmasından söz açır [***15***, 54]. Burada bir yanlışlığa yol verilib: müəllim "Nəzərəli oğlu İsmayıl Rza bəy" deyil, *Rza bəy Baba bəy oğlu Qaraşarlı*'dır[8]. Deməli, Sərvər bəyin hərəkatçı kimi formalaşmasında bu iki azərbaycanlı şəxsin önəmli rolu olub.

Osman Sərvər Atabəy 1917-ci ilin payızında Anadolu cəbhəsindən çəkilən və bolşeviklik üzündən evlərinə dönən rus ordusu birliklərinin əlindəki silah və cəbbəxananın hamısının erməni və gürcülər kimi hərbi təcrübəsi və hər sinifdən əsgər və zabitləri olan xristianların əlinə keçməməsi, türklərin də silahlanması üçün tədbirlər görüb. Azqurun igid gəncləri və yerli könüllü əsgərlər Azqur boğazını kəsərək Tiflisə çəkilməkdə olan rus alayının bütün silah-sursatlarını dəftərlə təslim alıblar. Bununla da şimaldan gələcək gürcülərdən, Axılkələk və Axıska içində çoxluqda olan ermənilərin hərəkətə başlaması ilə Qars üzərindən gələcək daşnaklardan qorunmağa başlayıblar. Mühəndis Sərvər bəy atasından miras qalan yüz minlərlə lirəsini xərcləyərək Milli Təşkilatın silahlı düzənini qurub. Posoflulardan milis (könüllülər) dəstəsi hazırlayıb. Ərdahan sancağının da Axıska və Axılkələk sancaqları ilə birgə özünü qoruması üçün və milli birlik yaratmaqdan ötrü çox çalışıb. Bu baxımdan 1917-ci ilin sonlarında onun rəhbərliyi altında qədim Atabəylər yurdunun Kür çayı bölgəsi bir araya gətirilib və gürcülərlə ermənilərə qarşı millik birlik yaradılıb. Axıskalılardan başqa, Posofdan *Xamşioğlu Arslan bəy* və Ərdahandan *Dikanlı Hafiz əfəndi* onun ən böyük köməkçiləri olub [***15***, 55].

Prof. F.Kırzıoğlu 1917-ci ilin sonlarında Tiflisdə "azərbaycanlı-gürcü-ermənilərdən" ibarət "üçlü Seym Hökuməti" qurulunca "Atabəyli Sərvər bəy"in Ərdahan sancağından dövlət müməssili (millət vəkili) olaraq oraya girdiyini yazır [***15***, 55] və bununla da ciddi dolaşıqlıq yaradır. Niyə? Rusiyada 1917-ci il Fevral inqilabından sonra Güney Qafqazda 9 (22) mart – 15 (28) noyabr 1917 tarixlərində Rusiya Müvəqqəti Hökumətinə tabe olan Özəl Zaqafqaziya Komitəsi yaradılıb, 15 (28) noyabrda Zaqafqaziya Komissarlığı (hökuməti) onu əvəz edib, Güney Qafqaz parlamenti olan "üçlü" Seym isə 10 (23) fevral – 26 may 1918-ci ildə fəaliyyət göstərib və hökumət ona tabe olub. Millət vəkilliyi Seymə aiddir, ancaq biz Gürcüstan arxivindən əldə etdiyimiz materialları nə qədər diqqətlə araşdırsaq da Seym üzvləri arasında Sərvər bəyin adını tapa bilmədik. Deməli, o, Seymin deyil, Zaqafqaziya Komissarlığının (hökumətin) üzvü olub. Hökumətdə hansı vəzifəni tutduğu isə araşdırma istəyən başqa bir mövzudur.

1918-ci ilin başlarında Axıska bölgəsinin idarəsi bütünlüklə yerli türklərin əlinə keçib. Artvində də "Sədayi-millət" qrupunun rəisi, ora Atabəylərindən olan *Şakir bəy* Çoruk bölgəsinin başçısı olub. Ardanuçdan *Tofiq Ataman* və Şavşatdan *Kamil xoca* onun köməkçiləri idi. ***Azərbaycan korpusuna tabe olan 8-ci müsəlman alayının*** mərkəzi Abastumanda yerləşib. Alayın komandiri şahzadə *Seyfi Mirzə Qacar*[9] idi. Bu dönəmdə alayın taburları Azqur və Koblıyanda qurulmuş, yerli türklərdən 12 min əsgər toplanmışdı. Alayın hərbi komissarlığını Sərvər bəy öz üzərinə götürüb. O, Duğurdan (Posofdan) olan fədakar *Xamşioğlu Arslan bəy'*in başçılıq etdiyi 800 nəfərlik milis dəstəsini öz pulu ilə hazırlayıb. 3 mart 1918-ci il tarixli Brest-Litovsk müqaviləsini tanımaq istəməyən və 12 martda dağıdılaraq Ərzurumdan çəkilən daşnak

[7] Qarabağ valisi olmuş Xosrov bəy Sultanzadə (1879-1943) nəzərdə tutulur.

[8] Rza bəy Qaraşarlı (1891-1937) Güney Qafqaz Seymi dönəmində – 1918-in martından Kars vilayətinin komissarı, 1918-1920-ci illərdə Azərbaycan Cümhuriyyəti Məclisi-Məbusanının (Parlamentinin) üzvü olmuşdu.

[9] Polkovnik şahzadə Seyfulla Mirzə Bəhmən Mirzə oğlu Qacar (1864-1926) nəzərdə tutulur.

ermənilərin Gölədən Ərdahan üzərinə basqına keçmək cəhdinə və Ur kəndindəki ermənləri də ayağa qaldırmasına qarşı Ərdahandan *Xamşioğlu Cəlal bəy*'in və Xoçuvanın Tikoş kəndindən *Güllüzaroğlu Abdullah bəy*'in idarəsindəki yerli könüllü dəstələri Ərdahanın içini və Uru ermənilərdən təmizləyərək Gölədən gələn basqınçıları da darmadağın edib [***15***, 55].

Prof. F.Kırzıoğlu yazır:

*"**Atabəyli Sərvər bəy**'in mart sonlarında **Azqurlu Əfrayim əfəndi** ilə Axıskalı xocası Ömər Faiq əfəndinin yegəni **Bibinoğlu Əhməd Cövdət bəy**'i Hopada **Eyublu Dəli Xalid bəy**'ə təmsilçi göndərib 8-ci alay və çətələrlə*[10] *Axıska ilə Ərdahanın yerli türklər əlində və ordumuzu gözləməkdə olduğunu duyurdu" [**15,** 55].*

Xatırlatmağa ehtiyac duyuruq ki, burada söhbət Azərbaycan maarif və mədəniyyəti sahəsində çox böyük xidmətləri olmuş iki görkəmli şəxsdən: *Ömər Faiq Nemanzadə* (1872-1937) və onun bacısı oğlu *Əhmədcövdət bəy Pepinov-Ömərbəyov*'dan (1893-1938)[11] gedir. "Pepinov" soyadının ilk dəfə məhz burada yanlış getmiş "Bibinoğlu" yazılışı, demək olar ki, sonrakı bütün qaynaqlarda təkrarlanıb.

10 martda Hopanı azad edən ordu irəliləyərək 26 martda Borçkaya, 27 martda Artvinə, 1 apreldə Şavşata, 3 apreldə Ərdahana, 4 apreldə Posofa çataraq oradan Axıska torpağına girib. Polkovnik *Seyfulla Mirzə Qacar*'ın komandası altındakı 8-ci müsəlman alayının 3-cü tüməninə başçılıq edən *Dəli Xalid bəy* aprelin başlarında *Osman Sərvər bəy*'lə birlikdə Axıskanı ermənilərdən təmizləyərək təslim alıb [***15***, 55].

Altı ay yarımdan sonra – 1918-ci il noyabrın 30-da Mondros müqaviləsinə əsasən ordu 1914-cü il sərhədləri gerisinə çəkilərək Dağıstan və Azərbaycandan başqa, gürcülərin də iyunda Batum müqaviləsi ilə rəsmən Türkiyəyə buraxdığı Axıska və Axılkələk sancaqları ilə Üç Sancaq (Qars, Ərdahan Batum) bölgəsini boşaltması qarşılığında 3-cü tümənin komandiri Xalid bəy 9-cu ordu komandanı, Harputlu *Yaqub Çövqi paşa* ilə gizlicə anlaşaraq ordunun yetərli qədər silah-sursatını könüllü qalacaq zabit və əsgərlərlə birlikdə Sərvər bəyin idarəsində qurulacaq yerli milislər (könüllülər) təşkilatına təslim edib [***15***, 55-56].

7-9 yanvar 1919-cu ildə keçirilən 2-ci Ərdahan Qurultayına qatılmış Sərvə bəy də "Mondros Mütarəkəsinin silahları buraxma və mücadilə etməmə hökmünü tanımamaq" üçün and çdikdən sonra Batuma gedərək 15 yanvarda ingilis generalı *Forest Voker*'lə görüşüb və ona bildirib ki, Axıska-Ərdahan-Qars bölgələrində yerli türklər, hakimiyyəti ələ alan *Milli Şura hökuməti* qurublar [***15***, 56].

Yanvarın 18-də Qarsda 130 nümayəndə toplaşaraq Batum-Naxçıvan bölgələrini də içinə alan *Cənub-Qərbi Qafqaz Müvəqqəti Hökuməti*'nin yaradıldığı teleqrafla Sərvər bəyə bildirilincə o, bu hadisəni Batumdakı həmin ingilis generalına çatdırıb və ingilisləri razı salmaq, Batumla əlaqənin üzülməməsi üçün bu şəhərdə qalıb [***15***, 56].

Gürcüstanın nizami qoşunları 1 mart 1919-cu ildə Azqura, 2 martda Axıskaya hücum edib. Kifayət qədər hazırlıqlı olmayan türk hərbi qüvvəsi gürcü hücumları qarşısında duruş gətirə bilməyincə Sərvər bəyə xəbər göndəriblər ki, gəl, başımıza keç. Artvin, Ərdahan və Posofdan olan bütün soydaşlarını bölgəni müdafiə etməyə çağıran Sərvər bəy xalqı səfərbər edib. Yaranmış 3000 nəfərlik qoşun gürcülərə hücuma keçib. Martın sonlarında *Osman Sərvər bəy* türk qüvvətlərinin komandanı olaraq mərkəzdə, jandarmaya başçılıq edən Ərdahanlı leytenant *Niyazi* sağ cinahda, Axıskanın Saxan kəndindən olan *Salih xoca* idi sol cinahda komandanlıq etməklə gürcülərə hücum ediblər. Bir günün içində dağıdılan gürcü alayı bütün silah-sursatını və toplarını ataraq Axıskaya qaçıb. Daha sonrakı bir hücumda darmadağın edlən gürcülər Axıska və Axılkələkdən ayrılaraq Borjom boğazının arxasına çəkiliblər. Axıska Milli Şura Təşkilatı bölgənin idarəsini öz üzərinə götürüb. Azqurda dağıdılmayan körpülər

---

[10] Könüllü dəstələrlə (milislərlə).

[11] Ə.b.Pepinov-Ömərbəyov haqqında buradan ən geniş bilgi almaq olar: M.Mərdanov, Ə.Tahirzadə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. VI cild. N-R hərfləri. Bakı: "Təhsil", 2021, ss. 191-239.

ingilislərin hind əsgərlərinə ləvazimat daşınmasına kömək edib. Bu, türklərin əleyhinə oldu. İdarə işləri Milli Şura heyətinin, hərbi işlər isə Sərvər bəyin üzərində qaldı [***15***, 56].

Bir müddət sonra gürcülər general *Kvintadze'*nin komandanlığı altında 28.000 əsgərlə yenidən Azqura daxil olaraq Axıskaya doğru irəliləyincə Sərvər bəy Axıskanın şimalındakı dağlara çəkilib milis qüvvələri ilə iki həftəyə yaxın müdafiə olunub. Silah-sursat gəlmədiyinə görə Sərvər bəy daha dözə bilməyərək anası ilə qardaşı arvadını Axıskadakı ingilislərə əmanət edərək Poskova çəkilib. Gürcülər Axıskanın kəndlərini yandıra-yandıra gəlib Poskov hüdudunda durublar. Bu sırada *İbrahim Cahangiroğlu (Aydın) bəy* 1919-cu il aprelin ilk həftəsində 800 nəvərlik bir qüvvə ilə Ərdahana gəlib. Sərvər bəy də buraya çəkilərək kapitan *Lətif bəy'in* idarə etdiyi könüllülərlə birgə Poskova doğru irəliləyib. Sərvər bəy üç top və minaatanla Xanyeri aşırımını tutaraq gürcülərlə iki gün vuruşub. O, sonra da gürcülərlə mücadilə aparıb, ancaq topları ilə birlikdə öncə Göləyə, oradan da Oltuya çəkilməli olub.

13 aprel 1919-cu ildə Qarsı işğal edən ingilislər Cənub-Qərbi Qafqaz Hökumətini dağıdıblar. Bundan sonra Sərvər bəy Ərzurumdakı xariciyyə mümməssili *Fəxrəddin Ərdoğan bəy*'dən rəsmi etimadnamə alaraq Paris Sülh Konfransına getmək üçün oktyabrın sonunda İstanbula gəlib. Burada Ərdahanlı Behcət bəylə görüşüb. İngilislərin axtarışından qurtulmaq üçün ona Hilali-Əhmər (Qırmızı Aypara) Cəmiyyətindən "*Oltulu Osman Sərvər əfəndi"* adına saxta vəsiqə verilib [***15***, 56].

Sərvər bəy *Anadolu və Rumeli Müdafieyi-Hüquq Cəmiyyəti* İstanbul üzvləri *Yunus Nadi* və *Xalidə Ədib xanım*'la əlaqə yaradıb, Batumda 1919-cu ilin oktyabrında fransızca çap etdirdiyi, erməni və gürcülərin işğal zamanı törətdikləri zülmləri anladan cürbəcür statistikalı sənədləri poçtla Paris Sülh Konfransına göndərib, "Yenigün" qəzetində də bu haqda məqalələr yazıb [***15***, 57].

İstanbulda qalması riskli olduğundan, Mərsinli *Camal paşa* və *İzzət paşa* ilə əlaqə yaradaraq Üç Sancaq və Qafqazın 1:84.000-lik miqyasda çəkilmiş rusva hərbi qərargah xəritələrini alıb 2 torba içində böyük çətinliklə Ərzuruma gətirərək Əyublu *Dəli Xalid bəy'*ə çatdırıb. Bu xəritələr 1920-ci ildə Qarsın azad edilməsində və Araz boyundakı hərbi əməliyyatlarda böyük fayda verib.

1920-ci ilin aprelində Oltuya gələrək buradakı Milli Şura heyəti ilə razılaşaraq könüllü milis dəstələri yaradan Sərvər bəy "Fəxri kapitan" olaraq Dəli Xalid bəyin əmrində könüllü təşkilatını genişləndirib. O, Xalid bəyin tövsiyəsi ilə 1920-ci ilin sentyabrında Bakıda keçirilən Şərq Xalqları Qurultayına Üç Sancağın nümayəndəsi kimi gedib. Bakıdakı Qars və Axıska mühacirləri ilə görüşərək onlardan gərəkli sənədlər alaraq Qurultaya qəbul edilib. *Ənvər paşa* ilə də görüşüb. Qurultayda məruzə edərək Axıska və Axılkələk bölgəsinin erməni və gürcü işğalında qurtarılması ilə bağlı bir neçə layihə açıqlayıb. Bakıda ay yarım qalıb və bolşeviklər onu öldürmək istəyib. Bu sırada Moskvadan qayıdan Türkiyə siyasi nümayəndəsi Dr. *Fuad Sabit'*ə durumunu anladıb, səfarət katibi vəzifəsinə götürülərək onunla birlikdə Gümrüyə gəlib.

Türk ordusu Axıska və Axılkələyə girib, ancaq 16 mart 1921-ci il tarixli Moskva müqaviləsinə əsasən martın sonunda bu bölgəni tərk etmək məcburiyyətində qalıb. Bu sırada Osman Sərvər bəyin anası milyonluq əmlakını, bağçasını, meşə və torpaqlarını buraxaraq ev əşyalarını bir neçə xizəyə yükləyib, qohumlarını da götürərək Ərdahana gedib.

1921-ci ildə Ərdahanda I dönəm Türkiyə Böyük Millət Məclisinə (TBMM-ə) keçirilən seçkidə *Osman Sərvər Atabəy* də qalib gələrək millət vəkili olub. O, vəkil olduğu müddətdə Şərqi Anadoluya dəmiryolu çəkmək istəyən, daşnak ermənilərin məqsədinə uyğun çalışacaq Amerikanın Çister Layihəsinin iç üzünü açıqlayıb və onun sayəsində bu layihə rədd edilib. 1923-cü ildə yenə də Ərdahandan millət vəkili seçilsə də TBMM-ə qatılmaq ona nəsib olmayıb...

Sərvər bəy 1924-1936-cı illərdə Türkiyənin mədən şirkətlərində mühəndislik edib. 23 fevral 1936-cı ildən Mədən Tədqiq və Arama İnstitutunda fənn heyəti müşaviri və sonra prostektör olub.

O, 1942-ci ildə ailə qurub. Bir qızı olub. 31 mart 1949-cu ildə təqaüdə çıxaraq qayınatasının yaşadığı İzmirdə məskunlaşıb, İzmirə yaxın Gümüldürdə bir çiftlik alaraq ziraətlə məşğul olub. 1962-ci il dekabrın 12-dən 13-nə keçən gecə çiftliyindən evə gedərkən faciəli yol qəzasında sevimli nəvəsi Feyzullahla birlikdə həlak olub [***15***, 57].

Professor F.Kırzıoğlu sonda yazır:

*"76 yaşında rəhmətə qovuşan mədən mühəndisi Osman Sərvər ATABƏY* ***türk-gürcü mücadiləsində ən böyük qəhrəmanımız olaraq*** *xatirəsi yaşayacaqdır. Son dərəcə əsil, kübar, təvazökar, doğru, mərd və çox kamil bir şərəfli zat idi"* [***15***, 57-58].

**3. "Bizim Axıska" dərgisində**

Dr. *İbrahim Agara*'nın "Bizim Axıska" dərgisindəki (2011, № 15, s. 22) "Zeynəb Atabəyoğlu ilə atası Osman Sərvər Atabəy haqqında söhbət" adlı müsahibəsində [***18***] *Zeynəb xanım*, demək olar ki, atasının ömür yolunu ümumi cizgilərlə işıqlandıra bilib. Söhbətin sonunda *Yunus Zeyrək*'in "Posofun cizgiləri" əsərinin səhifələri (Ankara, 2004, ss. 139-142) qaynaq kimi tövsiyə olunub. Biz bütün cəhdlərimizə baxmayaraq, nə yazıq ki, Yunus bəyin həmin kitabını indiyədək əldə edə bilməmişik, ancaq Zeynəb xanımın cavablarından aydın olur ki, adıkeçən kitabdakı Sərvər bəy haqqındakı faktlar da professor *Fəxrəddin Kırzıoğlu*'nun adıkeçən məqaləsindən götürülüb. Bu önəmli məqamı nəzərdən qaçırmamaqla İbrahim Agaranın müsahibəsindən yalnız Zeynəb xanımın cavablarındakı özəl məqamlarla tanış olaq.

Zeynəb xanım İbrahim Agaraya bildirib ki, atam məşhur *Atabəylər* ailəsindəndir. Atası *Feyzullah bəy* hərbçi kökənli olub, zamanının zənginlərindəndi. Anası *Zeynəb xanım*'dır. Atam anasını çox sevdiyindən mənim adımı Zeynəb qoyub. Atam atasını çox gənc yaşda itirincə onu dayıları himayə edib və təhsilinə çox önəm verib. Atam yüksək səviyyədə rusca, almanca, fransızca danışır və yazırdı.

Atam anamla Ankarada evlənib. İlk uşaqları mənəm. Məndən üç yaş kiçik bacım var. Anam vəfat edib; o da bir yol qəzasında həlak olub. Konyalı bir əsnaf olan *Hüseyn bəy*'in qızıydı.

Ailə üzvlərimizin çoxu ölüb. Bacılarım *Lütfiyyə* və *Nəzrin Atabəyoğulları* İstanbulda yaşamaqdadır. Atamın anası prof. *Feyizxanoğlu Hüseyn bəy*'in qızı *Zeynəb xanım*'dır. Onlar Krım türklərindəndir.

Atam Türkiyə Böyük Millət Məclisinin (TBMM) açılışına Ərdahan millət vəkili olaraq qatılıb. İlk Cümhurbaşqanımız *Mustafa Kamal Atatürk* silah arkadaşları və o dönəmin millət vəkilləri ilə mütləq görüşüb, ancaq əlimdə hər hansı bir bəlgə olmadığına görə bu haqda bir şey söyləyə bilmərəm.

*Kazım Qarabəkir paşa*'nın atamın çox yaxın dostu olduğunu bilirəm. Tez-tez görüşdüklərini xatırlayıram. Hətta mən kiçikkən atam bir ziyarətində məni Kazım paşanın evinə aparmışdı. O gün mənim üçün çox həyəcanverici bir gündü. *Xalid paşa*'yla ilişkilərinin də çox yaxşı olduğundan danışardı. Amma Xalid bəyin özünü görmək mənə nəsib olmadı.

Atam TBMM-nə 2-ci dönəm də xalq tərəfindən seçilib, ancaq bir maddədən dolayı partiyaya tərs düşdüyü üçün vəzifə ala bilməyib.

Nə yazıq ki, əlimdə o dövrə aid heç bir fotoşəkil qalmayıb. Atamın ölümündən sonra İzmir Alsancaqdakı evimdə bir yanğından sonra atama aid bütün arxiv yanıb kül oldu.

Arxivlərdən öyrəndiyimə görə, atam Axıskada böyük milli bir mücadilə verib, kommunist rejiminə qarşı çıxıb, bu rejimin bölgəyə və Axıska türklərinə zərər verəcəyini düşünərək bu bölgənin Misaqi-Milli sınırları içinə alınmasını, Türkiyə Cümhuriyyəti torpaqlarına bağlanmasını istəyib və bunun mücadiləsini aparıb. *Ömər Faiq əfəndi* isə Axıska bölgəsinin və Axıska türklərinin muxtar bir cümhuriyyət qurmasından yanaymış. Yəni Axıska bölgəsinin Misaqi-Milli sınırları içinə girməməsi üçün çalışıb, bu səbəblə də milli mücadiləyə qatılmayıb. Onların fikirlərinin eyni olmaması bu nədənlərlə bağlı ola bilər.

Atam Türkiyənin ilk mədən mühəndislərindən biridir. Türkiyəni addım-addım, dağ-dağ dolaşıb, mədən xəritələrini çəkib, bir çox yeraltı sərvətlərini müəyyən edib. Bu gün Türkiyə hələ də atamın çalışmalarından faydalanmaqdadır.

Atam təqaüdə çıxdıqdan sonra İzmirə yerləşib və çalışmalarını davam etdirib. Bir neçə mədən ocağı açıb və çalışıb. Ancaq 1956-cı ildə böyük bir rahatsızlıq keçirincə bu fəaliyətinə son verib. Daha sonra İzmir Gümüldürdəki çiftliklə maraqlanıb. 13 dekabr 1962 tarixində Gümüldür-İzmir yolunda bir trafik qəzası sonunda həyatını itirib.

Rəhmətlik atam məmləkətimiz Axıskanın gözəlliyindən, daşından, torpağından, ağaclarından, çiçəklərindən çox bəhs edərdi. Axıska türklərinin bu torpaqlardan [Sovet hakimiyyəti tərəfindən] haqsız yerə sürgün edildiyindən, bir gün mütləq bu insanların öz ana vətənlərinə dönəcəklərindən danışardı. Bunlar mənim beynimə elə yerləşib ki, mən də Axıskanı görür kimi oluram.

Atam məni uşaqlıq dönəmində həmişə yanında gəzdirərdi. Silah arkadaşlarının ev ziyarətlərinə tez-tez getdiyimizi xatırlayıram. İstanbulda Əyyub Sultanda ata nənəmin məzarını tez-tez ziyarət edərdik. Atamın keçmişi xatırlayaraq duyğulanmasını və ağladığını heç unuda bilmirəm.

Bu müsahibədə özü haqqında danışan Zeynəb xanım bildirib ki, bir oğlum və bir qızım var. 1993-cü ildə Amerikaya yerləşdik. Mən indi bir az Amerikada, bir az da Türkiyədə yaşayıram [***21***].

***

Sərvər bəyin ali təhsili haqqında indiyədək söylənmiş bəzi fikirlərə (özəlliklə Sankt-Peterburq Universistetinin hüquq fakültəsində oxuduğu dönəmlə bağlı) daha da aydınlıq gətirmək istəyirik. Belə ki, onun Sankt-Peterburq arxivində saxlanılan 14-cü fonddakı 69236 saylı tələbə şəxsi işi [***4***] ilə tanış olduğumuz zaman öyrəndik ki, o, 9 sentyabr 1896-cı ildən 12 iyun 1903-cü ilədək Tiflis edadi (real) məktəbində oxuyub. Attestatındakı qiymətlər yalnız "5" və "4"dür. Həmin şəxsi işdəki bir arayışda göstərilib ki, Petroqrad Universitetinin keçmiş tələbəsi, 30 yaşlı *"Atabəyov-Koblianski Sərvər bəy Feyzullabəyzadə"* 30 noyabr 1914-cü ildə Universitetin hüquq fakültəsinə qəbul olunub və 23 avqust 1916-cı ildə öz ərizəsinə əsasən oradan çıxıb. 26 avqust 1916-cı ildə Petroqrad Universitetinin rektorundan onu Universitetin fizika-riyaziyyat fakültəsinin tibb bölməsinə keçirməyi xahiş edib. Görünür ki, bu xahişinə hansı səbəbdənsə əməl olunmadığına görə o, hüquq fakültəsində təhsilini davam etdirib. 20 dekabr 1916-cı ildə artıq hüquq fakültəsini bitirmiş Sərvər bəy yenidən xahiş edib ki, tibb bölməsinə ya tələbə, ya da ən azından sərbəst dinləyici kimi götürülsün [***4***].

**4. Sərvər bəy Atabəyov-Koblianlı – hökumət sədri**

*Tosik Dinc*'in "Batum andlaşmasından Mondros mütarəkəsinə qədər keçən müddətdə Axıskadakı fəaliyyətlər" məqaləsində [***14]*** də professor F.Kırzıoğlunun yazısının güclü təsiri duyulmaqdadır. O yazır ki, Osman Sərvər bəy Zaqafqaziya Hökumətinin 18 dekabr 1917-ci il tarixli bəyannaməsi ilə "ordu milliyyət əsasında qurulacaq" elanı ilə təşkilatlanmağa başlayıb. Yaratdığı milis qüvvələrinin silah-sursat ehtiyacını o, Tiflisə geri çəkilən rus alayının hərbi texnikasını müsadirə etməklə ödəyib. Bu silah-sursatla o, şimaldan gürcülərdən, Axıska və Qars bölgələrində ermənilərdən gələ biləcək təhlükələrə qarşı tədbir görüb. 1918-ci il martın sonlarında Hopadakı podpolkovnik *Xalid bəy*'ə iki elçi göndərib. Aprel ayında Axıska və ətrafında möhkəmlənməyə çalışan erməniləri Xalid bəy və Sərvər bəy məğlub edərək Axıskanı ələ keçiriblər [***14***].

Yuxarıda adı keçən tarixçi *Aydın Hacıyev* Sərvər bəyin kimliyini bilmədən, şəxsiyyətini tanımadan arxiv bəlgələrindən onun fəaliyyəti haqqında maraqlı faktlar üzə çıxarıb. Məsələn, A.Hacıyevin "Qars və Araz-Türk Respublikalarının tarixindən" adlı dəyərli əsərində [***6***] oxuyuruq ki, tarixə "Qars Cümhuriyyəti" kimi daxil olmuş "Cənub-Qərbi Qafqaz Cümhuriyyəti" 1 dekabr 1918-ci ildə yaradılıb. Buraya Qars və Batum vilayətləri, Axaltsıx, Axılkələk, Şərur, Naxçıvan, Sürməli və İrəvan qəzasının cənub-şərq hissəsi daxil olub.

Dekabrın sonlarında Milli Şura müvəqqəti hökumət yaratmaq haqqında qərar çıxarıb. Fikrini davam etdirən A.Hacıyev yazır:

*“Bu hökumətdə əsas rol oynayan, **hökumətin sədri S.F.Atabəyov** idi. O, ADR hökuməti və onun Batumdakı nümayəndəliyi ilə möhkəm əlaqə yaratmaq üçün əlindən gələni edirdi”* [***6,*** 16-17].

*“Yanvarda*[12] *Cənub-Qərbi Qafqaz Respublikası öz ərazilərini və birincilər sırasında Batum vilayətini itirməyə başladı. Yanvarın 20-də Batum Şəhər İdarəsində Batum vilayətinin bütün məntəqə nümayəndələrinin və Qars vilayətindən **iki nümayəndənin (Atabəyov** və **Kəblinski**’nin) iştirakı ilə iclas keçirildi. İclasda cəmisi 80-90 adam iştirak edirdi”* [***6,*** 21-22].

*“Batum iclası çağırılan gün faciəli hadisələr baş verdi. Türk hərbi dəstələrinin Qars vilayətindən çıxmasından istifadə edən Gürcüstan qoşunları Posof sahəsində qarovul dəstəsinə silahlı hücum etdilər. Döyüş 8 saat davam etdi. Gürcü qoşunları məğlub oldular və geri çəkildilər. Cənub-Qərb hökumətinin hərbi dəstələri bir sıra kəndləri tutdu. **Atabəyov** və **Kəblinski** ADR hökumətinin Batumdakı nümayəndəsinə bildirirdilər: “Umudvarıq ki, sizin köməyinizlə Gürcüstanla diplomatik münasibətdə toqquşmaya yol verilməyəcəkdir”* [***6,*** 23].

*“Qars Respublikasının müvəqqəti hökuməti 1918-ci ilin dekabrında yaradıldı və iki dəfə dəyişikliyə uğradı: **S.F.Ağabəyov**’un*[13] *başçılıq etdiyi birinci kabinet bilavasitə Milli Komitənin iclasında təşkil olunmuşdu. İ.Cahangirovun başçılıq etdiyi ikinci kabinet (Nazirlər Şurası) 1919-cu il martın 27-də Parlament iclasında təsdiq edilmişdi. Beləliklə, hakimiyyətin legitimliyinə nəinki əməl olunurdu, həm də Avropa ölkələrinin təcrübəsindən faydalanaraq beynəlxalq normalara yaxınlaşırdı”* [***6,*** 34].

Bir daha xatırladırıq ki, müəllif A.Hacıyevin fikrincə, “S.F.Atabəyov”, “Atabəyov” və “Kəblinski” hökumətdəki ayrı-ayrı şəxslərdir. Onun işlətdiyi “Kəblinski” soyadı isə “Koblianski”nin ruscadan yanlış tərcüməsindən başqa bir şey deyil.

### 5. Sərvər bəyin mücadiləsi Ərkan Qaragözün araşdırmalarında

Türkiyəli araşdırmaçı *Ərkan Qaragöz* özünün “Cənub-Qərbi Qafqaz siyasi və sosial mücadilələr tarixi” kitabı da [***8***] Sərvər bəyin o dönəmdəki hərbi və siyasi fəaliyyətinə işıq salmaq baxımından dəyərlidir. Doğrudur, həmin əsərdə də ciiddi yanlışlıqlar mövcuddur. Məsələn, o, 2-7 oktyabr 1917-ci ildə keçirilən Qafqaz bolşeviklərinin ilk qurultayında seçilmiş RSDF(b)P Qafqaz Komitəsi üzvlərini sadalayır: *S.Şaumyan, M.Tsxakaya, P.Caparidze, F.Maxaradze, D.Şahverdyan, S.Kavtaradze* və ***A.Atabekov***. Müəllif elə oradaca qeyd edir ki, “A.Atabekovun Sərvər Atabək olma olasılığı bulunmaqdadır. Çünki Sərvər bəy kimi Qafqazda siyasət yapan bütün inqilabçılar birdən artıq isim kullanmışlar” [***8,*** 38]. İş burasındadır ki, adıkeçən A.Atabekov erməni *Andrey Adamoviç Atabekov*’dur və Sərvər bəyin adının Şaumyan kimi qəddar bir türk düşməni ilə yanaşı çəkilməsi Sərvər bəyin ruhunu incitməkdən başqa bir şey deyildir. Belə yanlışlığa baxmayaraq, Ə.Qaragöz qəhrəmanımızla bağlı bir çox dəyərli sənədli bilgiləri üzə çıxarıb. Aşağıda onun bu əsərindən götürdüyümüz bəzi faktları təqdim edirik.

Ə.Qaragöz yazır ki, 17-18 yanvar 1919-cu ildə “Cənub-Qərbi Qafqaz Hökuməti-Müvəqqəteyi-Milliyyəsi” adlı müvəqqəti bir hökumət qurulub. 3 yanvar 1919-cu ildə keçirilən Ərdahan qurultayının aldığı qərara əsasən 19 oktyabr 1919-cu ildə “Kobliyan bəyi Sərvər Feyzullah Atabəy” ***Cənub-Qərbi Qafqaz Xalqının Hüquqlarını Qoruma Mərkəzi Komitəsi sədri*** adından qalib dövlətlərin təmsilçilərinə, qəzetəçilərə və Paris Sülh Konfransı üzvlərinə belə bir bəyanat göndərib:

*“Cənub-Qərbi Qafqaz torpaqları bir yandan Qara dənizdən İrana uzanan və obiri yandan Şərqi Anadoludan Qafqaza gedən yollar üzərində qurulmuş bir ölkəni təşkil edir...*

---

[12] 1919-cu ildə.

[13] Mətndə “Atabəyov” əvəzinə “Ağabəyov” yazılıb.

*Ondoqquzuncu yüzilə doğru tamamıyla bir türk eli halına gəlmiş olan ölkəmiz XIX yüzildə ruslar ilə türklər arasında keçən sürəkli savaşlar sonunda ruslar tərəfindən işğal edilmişdir.*

*[...] Türklər tərəfindən keçirilən xalq səsverməsi sonunda Batum, Qars və Ərdahan sancaqlarının əhalisi* ***bu bölgələrin Türkiyəyə qatılması üçün*** *yekdilliklə qərar vermişdir.*

*Brest-Litovsk andlaşmasının qaldırılması ilə və Türk ordusunun çəkilməsindən sonra ölkəmiz müsyö Vilson prinsiplərinin doğurduğu yeni bir məsələ qarşısında bulunmuşdur. Ölkənin durumu Türk ordusunun çəkilməsindən sonra ingilislərin işğalına qədər daha da pisləşdi. Çünki nisbətən qısa olan bu arada bir yandan ermənilər, obiri yandan gürcülər növbə ilə torpaqlarımızın böyük bir kəsimini işğal etdilər və heç müdafiə edilmədən özlərinə buraxılan yağmaları bölüşmək üçün silaha sarılaraq bir-biriləri ilə vuruşdular. Bu mücadilə ingilis işğal qüvvətlərinin işə qarışması ilə istilaçılar əleyhinə sona çatdı. Bu istila savaşlarına yabançı qalmış olan müsəlman əhali ən böyük qarətlərə və ən böyük zərərlərə məruz qaldı.*

*[...] Ermənilər tərəfindən başlanan və gürcülərin davam etdirdiyi müsəlman xalqın yox edilməsi işi sürüb gedəcəkdi. Belə bir durum qarşısında son dərəcə mühüm bir sual ortaya çıxır: bu torpaqların müsəlmanları nəyi istəyirlər? İstiqlallarınımı diləyirlər, yoxsa qaniçici zalımların boyunduruğu altında qalmağa davam edəcəklərmi? Cənub-Qərbi Qafqaz bölgələrini təmsil edən Milli Şura onların istiqlallarını kəskincə elan etmək surəti ilə bu suala parlaq bir biçimdə qarşılıq verdi (30 noyabr 1918).*

*[...] Rusların, rumların və sairə kimi azlıqda qalan ünsürlərin təmsilçilərini də içinə alan Milli Şura bu qərarı vermişdir:*

*"1. Batum ilə Qars illərini (Artvin daxil), Axıska ilə Sürməli (Duzluca, İğdır-Aralıq) sancaqlarını və eyni zamanda türklərin çoxluqla oturduqları Axılkələk ilə Eçmiyazin sancaqlarının qərb kəsimlərini içərisinə alan Cənub-Qərbi Qafqaz hökuməti müstəqil bir dövlətdir. Milli Şura Qurucular Məclisinin toplanmasınadək bu bölgələrdə Cümhuriyyəti elan edir. Milli Şura Batum, Qars və Ərdahan əhalisi tərəfindən daha öncə verilmiş olan qərarı da bu illərin Türkiyəyə qatılmasını göz önünə alaraq, tanımır. Ayrıca daha öncəki plebisitin[14] nəticələri qəbul edildiyi və Sülh Konfransı yeni bir xalq səsverməsinə müraciətə qərar verdiyi təqdirdə Milli Şura bu plebisitin Sürməli və Axılkələk və Eçmiyazinin (Valarşabad / Üçkilsə) qərb kəsimləri üçün də keçirilməsini diləyir".*

*"2. Milli Şura tərəfindən alınmış qərarları etilaf və ortaq dövlətlərin təmsilçilərinə anlatmaq vəzifəsi ilə bir heyətin, belə bir imkan yaranarsa, Paris Sülh Konfransına göndərilməsi qərarlaşdırılacaqdır".*

*[...] Ədalətinizə və tərəfsizliyinizə güvənən Mərkəzi Komitə sizə göndərməklə şərəf duyduğu 1915-1917 illərinə aid Qafqaz illiyi almanaxlarında[15] rəsmən yayımlanmış olan etnoqrafiya xəritəsi və rus statistikaları ilə təsdiqlənib bəlgələnmiş olan Milli Şuranın qərarlarını yaxşı qarşılayacağınızı umur və əzilən bir ulusun davasını görməzlikdən gəlməmənizi alçaqkönüllüklə rica edir".*

*Lütfən. Batum, 19 oktyabr 1919.*

*Cənub-Qərbi Qafqaz Xalqının Hüquqlarını Qoruma Mərkəzi Komitəsi sədri adından*

***Sərvər Feyzullah Atabəy. Kobliyan bəyi (Prince De Kobliyan)**"* [***8,*** 106-109].

Xatırladırıq ki, bu zaman Sərvər bəy Qars millət vəkili idi.

27 mart 1919-cu ildə müvəqqəti dövlətin adı dəyişdirilərək "Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti" qəbul edilib.

Ərkan Qaragöz yazır:

*"Cümhuriyyət idarəçilərinə bir göz atacaq olsaq bunların önəmli bir qisminin universitet təhsili aldıqlarını görmək mümkündür.* ***Sərvər Atabəy*** *(hüquqçu, ziraət mühəndisi, mədən mühəndisi)...*

[14] Ümumxalq səsverməsinin.

[15] Bizcə, "Qafqaz təqvimi" nəzərdə tutulur.

*[…] Bu Cümhuriyyət idarəçilərindən bir neçəsi: **Sərvər Atabəy**, Əsəd Oqtay, Fəxrəddin Ərdağan, Əlirza Ataman, Yasin bəy Böyük Millət Məclisində 1-ci dönəm məbusu*[16] *olaraq yer almışlar. Bu cümhuriyyətçi gələnəkdən gələn aydınların Məclis içərisindəki siyasi duruş və davranışlarının ayrıca araşdırılması gərəkməkdədir. Hələ Cümhuriyyətin elan edilmədiyi bir dönəm Məclisində, yəni 1-ci dönəm Türkiyə Böyük Millət Məclisində məbus olaraq bulunan bu kişilər hələ öncələri Qars Cümhuriyyəti parlamentində sədrlik etmiş, üzv olmuş və hətta nazirlik etmiş insanlardır. Başqa sözlə, Qarslı vəkillər əslində bütün üzvlərini Cümhuriyyət elanında həmfikir olduğu bir siyasi yapının içindən gəlmişdilər. Bunun əksinə, Türkiyə Məclisində elə də təsirlərinin olmadığını bilməkdəyik"* [***8***, 130-131].

Ə.Qaragözün əsərindən anlaşılır ki, Sərvər bəy daxil olmaqla TBMM-dəki Qars millət vəkillərinin bolşevik düşüncələri daşıdığı haqqında rəy formalaşıb. Onun fikrincə, bu deputatların bolşevik olduğu düşüncəsinin yaranmasında *Kazım Qarabəkir*'in çox böyük rolu olub, bu üzdən onlar TBMM-də ciddi fəaliyyət göstərə bilməyiblər. S.Atabəy TBMM-ə 2-ci dönəm də millət vəkili seçilib, ancaq partiya ilə ziddiyyəti üzündən Məclisdə yer tuta bilməyib [***8***, 131-132].

Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivində saxlanılan "Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti şöbə başqanı *Feyzullahzadə Sərvər*" imzalı, 1920-ci il tarixli bəlgəyə istinad edən Ə.Qaragöz qeyd edib ki, ingilislər hərbi birliklərin komandiri general *Voker*'in *(Wocker)* rəhbərliyi altında Qarsa daşnak erməniləri və menşevik gürcüləri doldurublar və onların yerli müsəlman əhalini qırmalarına şərait yaradıblar. 1919-cu il martın sonunda onlar Batum Milli Şurasını, 15 apreldə isə Məclisi dağıdaraq üzvlərinin çoxunu Malta adasına sürgün ediblər. Onlar Qars bölgəsini daşnaklara və gürcü menşeviklərə təslim etdikdən sonra Qarsdan ayrılıblar. Qarsda müsəlman əhaliyə qarşı mübarizə aparan ingilislər və fransızlar Cənub-Qərbi Qafqaz Demokratik Cümhuriyyəti nümayəndələrinin Paris Sülh Konfransına getməsini əngəlləyiblər [***3***, 671-672; ***8***, 248-254].

İngilislərin Qars Parlamentini dağıdaraq üzvlərini tutuqlamasına toxunan Ə.Qaragöz bu zaman Sərvər Atabəyin azadlıqda qalmasının səbəbini o gün onun hadisə yerində olmaması, "basqın anında quzeydə gürcülərə qarşı yürütdüyü bir savaşın başında" bulunması və "basqından bir-iki gün öncə ağır bir yenilgi alması" ilə izah edib [***8***, 150].

Ə.Qaragözün kitabında qeyd edilib ki, Cənub-Qərbi Qafqaz Müvəqqəti Hökumətinin nümayəndəsi Sərvər bəy Atabəyov-Koblianlı 27 yanvar 1919-cu ildə Batum şəhərindən Azərbaycan Cümhuriyyətinin Baş nazirinə bu məzmunda rusca məktub göndərib (öz tərcüməmizdə veririk):

*"Cənub-Qərbi Qafqaz Müvəqqəti Hökumətinin nümayəndəsi kimi Hökumətinizdən məmurlar və zabitlər göndərilməsini xahiş etməklə şərəflənirəm, çünki biz indiki anda çox ağır dönəmdəyik: gürcülərin (Ərdahan mahalının Posxov*[17] *məntəqəsindəki toqquşma) və ermənilərin (Şuragel məntəqəsinin Taylar və Qoşavəng kəndlərinə və Naxçıvan məntəqəsinin Qızıl Mağara kəndinə hücumlar) silahlı qüvvələri bizi sıxışdırır, bundan başqa, böyük ərazidə bütün idarəni kiçik qüvvələrlə təşkil etmək kimi siyasi kamillik imtahanı verməli oluruq. Buna görə sizdən bizə yardım üçün dolanışıq pulları ilə birgə adamlar göndərməyinizi xahiş edirik, çünki poçt hissəmiz hələ təşkil edilməyib və pulları vaxtında köçürmək gücündə deyilik. Hökumətin sizə göndərdiyi **Hacı Musa**'nın gəlib çıxıb-çıxmadığını Batum konsulunuza bildirməyi xahiş edirəm. Mənə şəxsi kömək kimi polkovnik **Yusif bəy Sırtlanov**'dan*[18] *bunu soruşmağınızı xahiş edirəm ki, o, ordunun düzgün təşkili üçün bizə gəlməyi arzu edirmi?"* [***8***, 274].

---

[16] Millət vəkili.

[17] Posof.

[18] Hüquqşünas və siyasi xadim, Rusiya Dövlət Dumasının 3-cü çağırış deputatı Əliəsgər Sırtlanov (1875-1912) da Sərvər bəy kimi Hüseyn əfəndi Faizxanovun (1823-1866) nəvəsi idi. Yusif Sırtlanov (1879-?) onun kiçik qardaşıdır.

Görünür, bu məktubu alan Azərbaycan Cümhuriyyətinin Gürcüstandakı diplomatik nümayəndəsi *Məhəmmədyusif Cəfərov* 3 fevral 1919-cu ildə Tiflisdən Bakıya belə bir teleqram göndərib ki, Ərdahan mahalının Posxov məntəqəsinin sərhədində Müvəqqəti Hökumətin başçılıq etdiyi, Qars vilayəti, Axaltsıx və Axılkələk qəzaları və Batum vilayətinin daxil olduğu Cənub-Qərbi Qafqaz Cümhuriyyətinin birləşdirdiyi yaxşı təşkil edilmiş müsəlman əhali ilə Ərdahan mahalını işğal etmək istəyən gürcü hissələri arasında yeni toqquşmalar baş verib. Məndəki bilgiyə görə, Gürcüstan hökumətinin ora göndərdiyi altı yüz nəfərlik Acar Qvardiya dəstəsi bütünlüklə məhv edilib, dəstənin komandiri də öldürülüb. Bu hərəkatda mənim Hökumətimin gürcüləri də iştirak edir [***1***].

Təəssüf ki, hökumətin bu teleqrama necə münasibət bəsləməsi haqqında əlimizdə bəlgə yoxdur.

**6. Rusca məqalə, yoxsa Kırzıoğlunun məqaləsinin ruscaya tərcüməsi?**

Dos. Dr. *Minarə Əliyeva-Çinar* "Eğitişim Dergisi"ndə (Nisan 2019, Sayı 62) dərc etdirdiyi özünün "Axıska tarixinin qürur səhifələrindən" adlı məqaləsinin sonuna *Fəxrəddin Bayramov*'un rusca qələmə aldığı "Qəhrəmanlarımızın tarixindən. Osman Sərvər Atabəy (Sərvər bəy) (1886-1962)" yazısını türkcəyə çevirərək əlavə edib [***12***; ***20***]. Yazını diqqətlə araşdırdıqdann sonra F.Bayramovun yazısının əslində professor  Fəxrəddin Kırzıoğlunun məqaləsinn bir qədər "ağzı-burnu dəyişdirilmiş" ruscaya tərcüməsindən başqa bir şey olmadığını müəyyənləşdiirdik.

**7. Sərvər bəyin ardınca**

Ankarada ildə iki dəfə çıxan "Mədən Tədqiq və Arama İnstitutunun Dərgisi" (Türkcə basqı, X.1963, Sayı 59) "Bir trafik qəzası sonucunda Y. mədən mühəndisi Sərvər Atabəki itirdik" başlıqlı yazıda qeyd edib ki, Qafqazın tanınmış Atabəyoğulları ailəsinə mənsub olan Osman Sərvər bəy 1886-cı ildə Axıskada dünyaya gəlmişdir. Atası Feyzullah bəy, anası Zeynəb xanımdır. Çox gənc yaşında atasını itirən Sərvər bəy mədən mühəndisliyi təhsilini Almaniyada Frayberq Universitetində aldıqdan sonra ayrıca Rusiyada ziraət və hüquq təhsillərini də tamamlamış bulunmaqdaydı. Birinci dünya savaşı və onun ardınca İxtilal illərində ətrafına topladığı adamlarının başında bir çox müharibələrdə iştirak etmiş, yaralar almış və uzun mücadilələrdən sonra Türkiyəyə keçmiş və buradakı savaşlarda da İstiqlal ordeni ilə təltif edilmişdi. TBMM birinci dövrəsində Ərdahan məbusu (millət vəkili) seçilmiş, bilaxərə[19] müxtəlif xidmətlərdə və bilxassə[20] uzun illər Mədən Tədqiq və Arama İnstitutunda çalışmışdır. Son illərdə İzmirdə yerləşmiş olub, bir tərəfdən mədən işləri ilə, digər tərəfdən də İzmir civarında *Gümüldür* adlı yerdə aldığı çiftliyi ilə məşğul olmaqdaydı. 12-13 dekabr 1962-ci il tarixində çərşənbədən cümə axşamına keçən gecə çiftliyindən İzmirə dönərkən baş verən faciəli və müəssif yol qəzasında çox sevdiyi və atasının adını daşıyan nəvəsi (*Feyzullah*) ilə birlikdə həyata gözlərini yummuşdur.

Adıkeçən yazının sonuna "Kars TTD. Araştırma Kolu" bu məzmunda bilgini əlavə edib ki, Ankarada Ortadoğu Texnik Universiteti Şəhərçilik kafedrası professoru və dekanı *Rauf Beyru* Sərvər Atabəyin bacısı *Lətifə xanım*'ın oğludur. Yenə Ankarada vəzifəli mədən mühəndisi *Ənvər Ediger bəy* də Sərvər Atabəyin obiri bacısının oğlu olub, onun yardımı ilə oxumuşdur. İzmir-Alsancaqda oturan rəhmətlik Sərvər Atabəyin yoldaşı Konyalı *Samiyə Atabəy'*də Axıska Atabəylərinə Osmanlıların verdiyi bir çox fərman, təmliknamə və bəratların əslləri bulunmaqdadır. Dərnəyimiz bunların əsllərindən fotosurətlər çıxararaq Axıska və Ərdahan çevrəsinin Osmanlı çağı tarixini aydınlatmada faydalanacaqdır [***15***, 58; ***19***].

**Nəticə**

Beləliklə, gözlərimiz qarşısında 20-ci yüzilin başlarındakı gərgin ictimai-siyasi fəaliyyəti ilə seçilən, ancaq indiyədək yetərincə dəyərini almayan görkəmli bir şəxsiyyətin

[19] Axır zamanlarda.

[20] Özəlliklə.

parlaq portreti canlanır. Azərbaycanda onun haqqında aparılmış bu ilk araşdırmadann sonra tarixçilərimizin arxivlərdən *Sərvər bəy Atabəyov-Koblianlı (Osman Sərvər bəy Atabəy)* barəsində yeni-yeni bəlgələri üzə çıxararaq onun bütün həyat və fəaliyyətini hərtərəfli öyrənəcəyinə umud bəsləyirik.

**KAYNAKÇA**

***Qısaltmalar:*** *ARDA* – Azərbaycan Respublikası Dövlət Arxivi; *GMTA* – Gürcüstan Mərkəzi Tarix Arxivi; *RDSSTA* – Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivi; *SPb.MDTA* – Sankt-Peterburq Mərkəzi Dövlət Tarix Arxivi; *f.* – fond; *siy.* – siyahı; *s.* – səhifə; *ss.* – səhifələr; *vv.* – vərəqlər.

***Arxivlər:***

1. ARDA, f. 291, siy. 2, iş 4288.
2. GMTA, f. 115, siy 1, iş 2988.
3. RDSSTA, f. 544, siy. 3, iş 20, vv. 671-672.
4. SPb.MDTA, f. 14, siy. 3, iş 69236.

***Ktablar:***

5. “Ağ ləkələr” silinir... Tərtibçi Osman Mirzəyev. Bakı: “Azərnəşr”, 1991, ss. 191-198.
6. Hacıyev Aydın. Qars və Araz-Türk Respublikalarının tarixindən. Bakı: “Azərnəşr”, 1994, s. 16-17, 21-22, 23, 34.
7. Hacılı Asif. Axıska türkləri: Vətən bilgisi. İstanbul, 2009.
8. Karagöz, Erkan. Güneybatı Kafkasya. Siyasal ve Sosyal Mücadeleler Tarihi. İstanbul: Park Kitap Yayınları, 2010, s. 106-109, 132, 238, 254-255, 268-270, 274.
9. Şahin, Enis. Trabzon ve Batum Konferansları ve Antlaşmaları (1917-1918). Ankara, 2002, ss. 710-715.
10. Асадов Юрий. 3000 армянских офицеров царской России. Историко-биографическая книга памяти (1701-1921). В 2-х томах. I том. Москва: изд-во «Перо», 2018.
11. Атабеков-Коблианский. Описание Ахалцихского садоводственного района. Тифлис: ред. «Кавк. хоз-ва», 1914.

***Məqalələr:***

12. Ahıska Tarihinin Gurur Sayfalarından. // Eğitişim Dergisi, Sayı: 62, Nisan 2019.
13. Boy, Arzu. 1877-1878’den 1920’ye Kadar Kars ve Çevresinde Rus-Ermeni İşbirliği. // Karadeniz Sosyal Bilimler Dergisi, İlkbahar 2018, Y. 10, C. 10, S. 18, ss. 109-132.
14. Dinç, F. Tosik. Batum Antlaşması’ndan Mondros Mütarekesine Kadar Geçen Sürede Ahıska’daki Faaliyetler. // Route Educational and Sosial Science Journal. Volume 2(1), January 2015, ss. 347-357.
15. Kırzıoğlu, M. Fahrettin. Türk-Gürcü Savaşı’nda En Büyük Milli Kahramanımız: Y. Mühendis Osman Server Atabek (1886-1962). // Kars İli. I Sayı: Çıldır. Ardahan. Hanak. Posof İlçeleri Kurtuluşu’nun 45. Yıldönümü Özel Sayısı. (Kars Turizm ve Tanıtma Derneği Yayınları – Sayı: 5). Ankara, 1966, ss. 54-58.
16. Исмаилов Э.Э., Тагирзаде А.Ш. Опыт составления азербайджанского некрополя. // ATŞCX, 7-ci buraxılış. Bakı: “Adiloğlu”, 2009, ss. 114-146.
17. Тагирджанова А.Н. Мирза Александр Казем-бек и Хусаин Фаизханов – научная деятельность и личные контакты: из истории факультета восточныхязыков и мусульманской общины Санкт-Петербурга. // Россия и Палестина: научные и культурные связи (по материалам архивных, рукописных, книжных и музейных фондов). Отв. ред. Н.В.Колпакова. Санкт-Петербург: БАН, 2018, ss. 61-70.

***İnternet materialları:***

18. Dr. Agara, İbrahim. Zeynep Atabekoğlu ile Babası Osman Server Atabek Üzerine Konuşma. // http://www.ahiska.org.tr/wp_pdf/sayi15/parcali/22_sayi_15.pdf; http://www.ahiska.org.tr/?p=906.
19. Server A. Atabek. 1886-1962. // https://dergipark.org.tr/tr/download/issue-file/7752 (s. 635).
20. Doç. Dr. Minara Aliyeva Çınar. Ahıska Tarihinin Gurur Sayfalarından. // https://www.egitisim.gen.tr/ahiska-tarihinin-gurur-sayfalarindan/.